AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ ARXİV İDARƏSİ

DÖVLƏT ARXİVLƏRİNDƏ YERİNƏ YETİRİLƏN ƏSAS İŞ NÖVLƏRİNİN VAXT VƏ İSTEHSAL NORMALARI

BAKI 2018

Azərbaycan Respublikası Milli Arxiv İdarəsi

Azərbaycan Respublikası
Milli Arxiv İdarəsinin Elmi Şurasının
2018-ci il 16 mart tarixli 1 №-li
qərarı ilə razılaşdırılmışdır.

Azərbaycan Respublikası
Milli Arxiv İdarəsinin 2018-ci il
16 mart tarixli 08 Ə/F №-li
əmrilə təsdiq edilmişdir.

DÖVLƏT ARXİVLƏRİNDƏ YERİNƏ YETİRİLƏN ƏSAS İŞ NÖVLƏRİNİN VAXT VƏ İSTEHSAL NORMALARI

Dövlət arxivlərində yerinə yetirilən əsas iş növlərinin vaxt və istehsal normaları Milli Arxiv İdarəsinin Təşkilat-metodika və beynəlxalq əlaqələr şöbəsi tərəfindən beynəlxalq təcrübəyə əsasən hazırlanmışdır.

Bakı - 2018

MÜNDƏRİCAT

Əsas müddəalar 4
Əməyin təşkili 5
İnformasiya–texnologiya avadanlıqlarından istifadə zamanı əməyin təşkili 6
Normativ hissə 7
1. MAF sənədlərinin mühafizəsinin təmin edilməsi 8
Sənədlərin mövcudluğunun və vəziyyətinin yoxlanılması 8
Zədələnmiş daşıyıcıya və mətnə malik sənədlərin aşkar edilməsi 9
Nadir və xüsusi qiymətli sənədlərlə işlər 9
Sənədlərin (çap nəşrlərinin, siyahıların) bərpa, cildlənmə, mikrofilmə çəkilmə, kserokopiya üçün hazırlanması 10
Sığorta və istifadə fondlarının yaradılması məqsədilə sənədlərin aşkar edilməsi və hazırlanması 12
Mühafizəxanadan işlərin (siyahıların, çap nəşrlərinin) təhvil verilməsi (və ya qəbulu) 14
Sənədlərin məqsədəuyğun şəkildə yerləşdirilməsi və onların fiziki vəziyyətinin yaxşılaşdırılması üzrə işlər 16
İşlərin texniki tərtibatı 19
2. MAF sənədlərinin uçotu 22
Arxiv sənədlərinin uçotunun təşkili 22
Nadir və xüsusi qiymətli sənədlərin uçotu 23
Sənədlərin elektron formatda yaradılan sığorta və istifadə fondlarının uçotu 23
Arxiv pasportunun tərtib edilməsi 24
Arxiv mühafizəxanasının pasportunun tərtib edilməsi 24
Uçot sənədlərinin qəbulu və rəsmiləşdirilməsi 24
3. Milli arxiv fondunun komplektləşdirilməsi və sənədlərin dəyərinin ekspertizası 25
Arxivin idarəçilik sənədləri ilə komplektləşdirilməsi 25
Arxivin şəxsi mənşəli sənədlərlə komplektləşdirilməsi 26
Sənədlərin dəyərinin ekspertizası 27
İdarə arxivlərinin işinə təşkilatı-metodiki rəhbərlik və nəzarət 28
4. MAF sənədlərinin təsviri və arxiv sənədlərinə elmi-məlumat aparatı sisteminin yaradılması 32
Arxiv sənədlərinin təsviri 32
Siyahıların təkmilləşdirilməsi 37
Siyahıların yenidən işlənməsi 38
Sənədlərin kataloqlaşdırılması 39
5. MAF sənədlərinin istifadəsi 42
İstifadəçilərin onların sorğuları üzrə informasiya təminatı 42
İstifadəçilərin təşəbbüslü məlumatlandırılması 43
Arxivin oxu zalının işi 44
Arxiv sənədlərinin sərgilərinin təşkili və hazırlanması 46
Arxiv sənədlərindən kütləvi informasiya vasitələrində istifadə 46
İnformasiya tədbirlərinin təşkili və keçirilməsi 47

Arxiv sənədlərinin istifadəsinin uçotu 47
İstifadəçilərin sifarişləri əsasında sənədlərin surətlərinin çıxarılması 48
Sənədlərin məxfilikdən çıxarılması üzrə işin təşkili 49
Sənədli nəşrlərin hazırlanmasının təşkili 49
6. İnformasiyanın daxil edilməsi, axtarılması və çıxarılması üzrə işlər 54
İnformasiya axtarışı 54
Mətni informasiyanın məlumatlar bazasına daxil edilməsi 55
Nəşrlərin hazırlanması üçün mətnin daxil edilməsi 55
Sənədlərin skan edilməsi (skanerin tipi və
dpi ilə ölçü sıxlığı nəzərə alınmaqla A4 formatlı) 56
Sənədlərin planetar skanerlərdə
skan edilməsi (elektron surətlərin hazırlanması) 56
7. Arxivin işinin təşkili 57
Planlaşdırma və hesabat 57
Arxivlərin elmi-metodiki işi 58
Arxivlərin məşvərətçi orqanlarının işinin təşkili 58
Arxiv tərəfindən iş və xidmətlərin yerinə yetirilməsi üçün
müqavilələrin hazırlanması və rəsmiləşdirilməsi 60
Arxivin fəaliyyətinin əsas istiqamətləri
üzrə Soraq-Məlumat Fondunun (SMF) işi 60

ƏSAS MÜDDƏALAR

"Dövlət arxivlərində yerinə yetirilən əsas iş növlərinin vaxt və istehsal normaları" (bundan sonra "Normalar") normativ idarəçilik sənədlərini, şəxsi mənşəli və şəxsi heyət üzrə sənədləri mühafizə edən dövlət arxivlərində tətbiq edilmək üçün nəzərdə tutulmuşdur. Ayrı-ayrı maddələr üzrə göstərilən vaxt normalarından idarəçilik sənədlərini mühafizə edən elmi-texniki, kinofotofono sənədləri arxivlərində də istifadə oluna bilər.

Normalar hazırlanarkən beynəlxalq arxiv təşkilatlarının və xarici dövlətlərin arxivlərinin iş təcrübəsindən, "Azərbaycan Respublikası dövlət arxivlərinin əsas iş qaydaları"ndan (2011), "Arxiv işi sahəsinə aid xidməti vəzifələr haqqında təlimat"dan (2016) istifadə olunmuşdur.

Vaxt norması əsasən arxivlərin, onların struktur bölmələrinin plan-hesabatlarının tərtibi zamanı iş vaxtının faktıkı sərfinin təhlili, struktur bölmələrin plan-hesabatları, icraçıların iş planları və onların işinə nəzarət, o cümlədən arxivlərin, onların struktur bölmələrinin və konkret icraçıların işinin planlaşdırılması zamanı işin ağırlığının (çox zəhmət tələb edən işlərin) müəyyənləşdirilməsi, icraçıların sayının hesablanması və əsaslandırılması üçün nəzərdə tutulmuşdur.

Normalar əməyin səmərəli təşkilini, zəruri əmək vasitələrini və əşyaların istifadəsini nəzərə almaqla, nümunəvi iş və xidmətlərə uyğun olaraq işlənib hazırlanmışdır. İşin mürəkkəbliyi artdıqca, onun yerinə yetirilməsi prosesinə yeni elementlər daxil edildikcə, yeni işlər, xidmətlər yarandıqca xronometraj müşahidələrin, yəni iş vaxtı sərfinin dəqiq və yerində qeydə alınması əsasında arxivlər yerli (şəxsi) normalarını işləyib hazırlayır. Yerli normalar daha detallaşdırılmış ola, icraçıların təcrübə və ixtisas dərəcəsini, işin çətinliyini, sənədlərin saxlanma şəraitini və normaların say göstəricilərinə təsir edən digər amilləri nəzərə ala bilər. Nəticədə ayrı-ayrı hallarda onlar bu vəsaitdə tövsiyə olunan normadan yuxarı və ya aşağı ola bilər.

Vaxt və istehsal normaları dövlət arxivlərində yerinə yetirilən işin və ona sərf olunan vaxtın öyrənilməsi və dövlət arxivlərində əmək prosesinin analiz edilməsi, uzun illər dövlət arxivlərində əldə olunan iş təcrübəsinin, normalara verilən rəylərin nəzərə alınması nəticəsində hazırlanmışdır.

Vaxt norması – müvafiq ixtisasa malik işçi və ya işçi qrupu tərəfindən müəyyən təşkilatı-texniki şəraitdə bir iş vahidinin yerinə yetirilməsinə sərf edilən vaxtdır.

İstehsal norması – müvafiq ixtisasa malik işçi və ya işçi qrupu tərəfindən vaxt vahidi çərçivəsində müəyyən təşkilatı-texniki şəraitdə yerinə yetirilən işin həcmidir.

İşin, xidmətin konkret növünün məzmunu və prosesinin unifikasiyası üçün "Azərbaycan Respublikası dövlət arxivlərinin əsas iş qaydaları"ndan istifadə edilmişdir.

Normalar 40 saatlıq iş həftəsində 8 saatlıq iş günü üçün müəyyən olunmuşdur.

Arxiv mühafizəxanalarında sənədlərlə işləyərkən (mövcudluğun yoxlanılması, işlərin verilməsi və ya yerləşdirilməsi, sənədlərin tozdan təmizlənməsi və s.) tavanların hündürlüyü 2,5 metr olarsa, sənədlərin ikiyaruslu və üçyaruslu mühafizəsi zamanı, işin uyğunlaşdırılmamış arxiv mühafizəxanalarında aparıldığı təqdirdə istehsal normaları 15-20% azaldıla bilər. Bundan əlavə, həmin işlər bağlamalarda saxlanılan sənədlərlə görüldükdə, norma 10% azaldıla bilər.

Tarixi dövrdən və ya sənədlərin xarakterindən asılı olan işlər üçün fəqrləndirilmiş normalar müəyyən edilmişdir, məsələn, sovet dövrünə qədərki, sovet və postsovet dövrlərinin sənədləri, idarəçilik sənədləri, elmi-texniki sənədlər, şəxsi mənşəli sənədlər və s. üçün.

İşlər və onların nəticələrinin kəmiyyət göstəriciləri dövlət arxivlərinin fəaliyyətinin əsas istiqamətləri üzrə "Normativ hissə"də verilib.

“Normativ hissə”də görülən işlərin, xidmətlərin adları və məzmunu və onlar üçün müəyyən edilmiş vaxt və ya istehsal normalarının kəmiyyət göstəriciləri göstərilib.

Normalar hazırlıq-tamamlama, yardımçı işlər və iş yerinə xidmətin təşkili üçün vaxtı nəzərə alır.

Tamamlama-hazırlıq işi – tapşırığın icrasına hazırlığa və ya onun tamamlanması ilə bağlı işlərə sərf olunan vaxtdır.

Yardımçı iş - əsas işin icrasını təmin edən işlərə sərf olunan vaxtdır.

İş yerinə xidmət vaxtı - iş yerinin təşkilini və ona qulluğu özündə birləşdirir.

İşçilərin fəaliyyətinin spesifikasını və əmək şərtlərini hesaba almaqla normalarda istirahət və şəxsi ehtiyaclar üçün iş vaxtı ərzində 30 dəqiqədən az olmayan vaxt nəzərdə tutulmuşdur (icazə verilmiş fasilələr üçün vaxt hesaba alınmadan).

Vaxt normaları - iş həcminin qəbul edilmiş ölçü vahidinə günlərlə müəyyən edilib. İstehsal normaları - 8 saatlıq iş günü ərzində görülmüş işlərin ölçü vahidləri ilə verilib. Ayrı-ayrı arxiv işləri üçün həm istehsal, həm də vaxt (dəqiqələrlə) normaları göstərilib. Gün ərzində işçi tərəfindən görülən işə ayrılmış vaxtın hesablanması üçün həmin görülən işin həcmi 1 iş gününə (8 saat) vurulmalı və alınan rəqəm həmin işin normasına bölünməlidir. Məsələn, işlərin mövcudluğu və fiziki vəziyyətinin yoxlanılması üzrə işin norması gün ərzində 300 saxlama vahididir. Tutaq ki, həmin iş işçi tərəfindən 100 saxlama vahidi həcmində yerinə yetirilmişdir. Bu işə ayrılan vaxtı müəyyən etmək üçün 100 saxlama vahidi 8 saata vurulmalı və alınan rəqəm normaya, yəni 300-ə bölünməlidir (100 x 8 : 300 = 2.66 saat). Dəqiqə və saatları iş gününə çevirmək üçün xüsusi cədvəldən (Əlavə 1) istifadə etmək olar.

İnformasiya-texnologiya avadanlıqlarını tətbiq etməklə (bölmə 6) mütəxəssislər və ya operatorlar tərəfindən görülən işlər üçün vaxt normaları dəqiqələrlə göstərilib. Kompüterlərdə iş vaxtı iş günündə bir işçi üçün 4 saat təşkil edir. Bu zaman nəzərdə tutulur ki, iş gününün qalan 4 saatını mütəxəssis və ya operator vəzifə təlimatına uyğun olaraq müəyyən edilmiş digər vəzifələrini yerinə yetirirlər.

Verilmiş normalarda əsas ölçü vahidləri qəbul edilib: ölçü vahidi, sənəd, çap vərəqi, makina vərəqi, vərəq, kartoçka, mikrofilm, mikrofiş, qutu, bağlama, byuks, rolik və s.

İdarəçilik sənədlərinin saxlama vahidi dedikdə 210x297 mm (A4 format) ölçüdə 150 vərəq, şəxsi mənşəli sənədlər üçün isə - həmin formatda 50 vərəq həcmində kağız əsasda iş başa düşülür.

İş həcminin ölçü vahidi – qutu (bağlama) üçün - 10 saxlama vahidi tutan qutu (bağlama) qəbul olunur.

İş həcminin ölçü vahidi - vərəq üçün - arxiv işinin vərəq hesabilə həcm vahidi (vərəqin bir üzündə mətn) qəbul olunur.

İş həcminin ölçü vahidi – kompüterdə (makınada) yazılmış vərəq üçün – vərəqin bir üzündə tam səhifədə sətirlərin sayı 29±1 və hər sətirdə çap işarələrinin sayı 60±2 olmaqla kompüterdə (çap makinasında) 1-1,5 intervaldan (əsas: Kargüzarlıq haqqında təlimat; bənd-33) bir çap edilən, 210 x 297 mm (A4 format) ölçüsündə makinada yazılmış mətnin orijinalı qəbul olunur.

İş həcminin ölçü vahidi – müəllif vərəqi üçün – 40000 mətn işarəsinə malik material qəbul olunur. Bütün durğu işarələri, hərflər, rəqəmlər, simvollar, sözlər arasında hər boşluq (probel) çap işarələri hesab edilir. Müəllif vərəqi Azərbaycan dilində 22-23 vərəq maşında yazılmış mətnə bərabərdir. Natamam son sətirlər tam hesab olunur.

İş həcminin ölçü vahidi – uçot-nəşr vərəqi üçün – nəşr həcminin müəllif vərəqi kimi 40000 çap işarəsinə bərabər ölçü vahidi qəbul olunur.

Əməyin təşkili

Dövlət arxivləri arxivlərin Əsas iş qaydalarını, sahə və ya müstəqil normativ-metodiki işləmələri əldə rəhbər tutaraq, sənədlərin mühafizəsi, uçotu, onlara elmi-məlumat aparatının yaradılması, onların istifadəsi və komplektləşdirilməsi üzrə kompleks işlər aparırlar.

Konkret dövlət arxivinin fəaliyyəti onun Əsasnaməsi əsasında həyata keçirilir.

Arxiv işçilərinin funksiyaları "Arxiv işi sahəsinə aid xidməti vəzifələr haqqında" təlimata uyğun olaraq qaydaya salınır.

Təşkilati-texniki şərtlər xidməti otaqlarda iş yerlərinin səmərəli təşkilini, işçilərin səmərəli əmək və istirahət rejiminə və müəyyən edilmiş sanitar normalarına riayət olunmasını nəzərdə tutur.

Arxiv işçilərinin əmək və istirahət rejimi bütün vacib işlərin nizamlanması və onlardan daha çətin olanların günün birinci yarısında yerinə yetirilməsi nəzərə alınmaqla daxili intizam qaydalarına uyğun olaraq müəyyən edilir.

Arxiv mühafizəxanaları xidməti otaqlardan təcrid edilməlidir.

Xidməti otaqların ölçüləri yerinə yetirilən işlərin xarakterindən asılı olaraq və sanitar-texniki normalara uyğun olaraq müəyyən edilir.

Struktur bölmələrin rəhbərləri üçün kabinetlərə ayrılan otağın sahəsi 10 kv.m-dən az olmamalıdır. Bir iş yeri üçün minimal sahə 4 kv.m-dir. Daha məqsədəuyğun yerləşdirmə - xidməti otaqda üç işçinin olmasıdır.

Mütəxəssisin iş yeri bir və ya ikitumbalı stol, enib-qalxan və fırlanan kreslo (stul), kitab şkafları, rəflər, dəftərxana ləvazimatları, iş üçün zəruri avadanlıqlarla təchiz olunur.

Xidməti otaqlarda əlverişli əmək şəraitinin yaradılması üçün optimal temperatur-rütubət rejimi qorunub saxlanılmalıdır: +17-19^0 C temperatur və havanın nisbi rütubəti 50-55%.

Ümumi işıqlandırmada xidməti otaqların işıqlandırılması 300-400 lk təşkil edir.

Bütün xidməti otağın işıqlandırma parlaqlığı eyni, iş yerinin isə hər işçi üçün fərdi olmalıdır. Bunun üçün əlavə işıqlardan istifadə oluna bilər.

Zehni fəaliyyətlə məşğul olan işçilər üçün xidməti otaqlarda yol verilən səs-küy səviyyəsi 50 dB-dən çox olmur, çap və ya hesablayıcı maşınların istifadə olunduğu otaqlarda səs-küyün 60 dB-dək səviyyəsi yolverilən dir.

İnformasiya–texnologiya avadanlıqlarından istifadə zamanı əməyin təşkili

İnformasiya-texnologiya avadanlıqlarının (bundan sonra - İT avadanlıqları) yerləşdiyi otaqlar təbii və süni işıqlandırmaya malik olmalıdır. Pəncərə yerlərinin şimal və ya şimal-şərqə səmtləndirilməsi arzuolunandır. Pəncərə yerləri onları tam açmağa (zərurət yarandıqda) imkan verən tənzimlənən jalüzlər və ya pərdələrlə təchiz olunmalıdır.

Fərdi kompüterlərlə işləyən operatorların və mütəxəssislərin iş və istirahət rejimi görülən işin xarakterindən asılıdır: məlumatların, mətnlərin daxil edilməsi, redaktəsi, ekrandan informasiyanın oxunması və s.

8 saatlıq iş günü ərzində İT avadanlıqlarında işin ümumi müddəti 4 saatı (yaxud iş vaxtının 50%-ni) ötməməlidir.

İT avadanlıqlarında fasiləsiz işin müddəti 2 saatdan çox olmamalıdır, bu zaman hər bir saat işdən sonra 10 dəqiqədən az olmayan fasilə lazımdır.

İT avadanlıqlarının istifadəsi üçün iş yerləri xüsusi stollarla, altlıqlarla, qalxıb-enən və fırlanan kreslolarla (stullarla), hündürlüyünə və maillik bucaqlarına görə tənzimlənən oturacaqlarla və söykənəcəklərlə təchiz edilir.

Bir iş yeri üçün minimal sahə 6 kv.m-dən az olmamalıdır. İT avadanlıqları ilə iş yerlərinin düzülüşündə videomonitorların olduğu iş stolları arasında məsafə 2 metrdən, monitorların yan səthləri arasındakı məsafə isə 1,2 metrdən az olmamalıdır.

Ekranın səthinin işıqlandırılma dərəcəsi 300 lk-dan, iş sənədinin yerləşdiyi sahədə stolun səthinin işıqlandırılma dərəcəsi 300-500 lk-dan çox olmamalıdır. İT avadanlıqları ilə iş zamanı otaqlarda tövsiyə edilən mikroiqlim: havanın temperaturu +19-21^{0}C, nisbi rütubət 55-62%.

Normativ hissə

Normativ məcmuəyə dövlət arxivlərinin aşağıda sadalanan fəaliyyət istiqamətləri üzrə vaxt və istehsal normaları daxil edilmişdir: “MAF sənədlərinin mühafizəsinin təmin edilməsi”, “MAF sənədlərinin uçotu”, “Milli arxiv fondunun komplektləşdirilməsi və sənədlərin dəyərinin ekspertizası”, “MAF sənədlərinin təsviri və arxiv sənədlərinə elmi-məlumat aparatının yaradılması”, “MAF sənədlərinin istifadəsi”, “Arxiv işinin təşkili”. Normativ vəsaitdə “İnformasiyanın daxil edilməsi, axtarılması və çıxarılması” bölməsi verilmişdir. Lakin arxiv sənədlərinin rəqəmsallaşdırılmasında skan avadanlığından, rəqəmsallaşdırmanı aparan əməkdaşların təcrübəsindən, sənədlərin xüsusiyyətlərindən asılı olaraq istehsal normaları təcrübə əsasında təyin edilir. Xüsusi normativləri hazırlayarkən cədvəldə verilmiş elektron surətlərin fayllarının miqdarının maksimal və minimal qiymətlərinə əsaslanmaq mümkündür. Verilən həcmlər arxiv sənədlərinin rəqəmsallaşdırılması üzrə ixtisaslaşdırılmış digər mənbələrdə (autsorsinq) tətbiq edilmiş normalardan xeyli azdır. Bu da diqqətin əldə olunan elektron surətlərin keyfiyyətinə yönəlməsindən irəli gəlir. Normalar 8 saatlıq iş günü üçün tətbiq edilib. Mütəxəssislərin kompüter texnikası ilə fasiləsiz işləməsi 2 saatdan artıq olmamalıdır. Hər 2 saatdan bir 10 dəqiqəlik fasilə verilməlidir. Kütləvi rəqəmsallaşdırma layihələrində bu tələblər nəzərə alınmaqla iş prosesi iki və ya üç növbəli rejimdə təşkil oluna bilər.

Elmi-texniki sənədləri, ədəbiyyat və incəsənət, fono-video, kino-foto üzrə sənədləri mühafizə edən arxivlər üçün səciyyəvi olan spesifik iş növləri bu məcmuəyə daxil edilməyib və həmin arxivlər tərəfindən müstəqil olaraq işlənib hazırlanmalıdır.

Göstəricilər, xülasələr, soraq kitabçaları, kataloqlar kimi soraq-məlumat nəşrlərinin hazırlanmasını həyata keçirən arxivlər üçün, soraq növündən asılı olaraq, arxivin sənədlərinin, metodiki bazasının, icraçıların ixtisasının, təşkilati-texniki şərtlərin xarakterini nəzərə almaqla öz şəxsi normalarını işləyib hazırlamaları məqsədəuyğundur. Lakin arxivlər bu normativin “Arxiv sənədlərinin təsviri və arxiv sənədlərinə elmi-məlumat aparatının yaradılması” başlıqlı 4-cü və “Arxiv sənədlərindən istifadə” başlıqlı 5-ci bölmələrinə daxil olan işlərin vaxt normalarından, həmçinin “İdarəçilik və şəxsi mənşəli sənədləri mühafizə edən dövlət

arxivlərində SSRİ DAF sənədləri üzrə soraq nəşrlərinin və publikasiyaların hazırlanmasına aid yerinə yetirilən işlərin kompleks vaxt normaları”ndan (M., 1990) istifadə edə bilər.

Normalar Milli Arxiv İdarəsi və dövlət arxivlərinin rəhbər işçiləri və mütəxəssislərinin iştirakı ilə müzakirə olunmuşdur.

Bu normativ vəsait dövlət arxivlərinin praktiki fəaliyyətində istifadə üçün Milli Arxiv İdarəsi tərəfindən tövsiyə edilmişdir.

1. MAF sənədlərinin mühafizəsinin təmin edilməsi

İndeks	İşin (xidmətin) adı	İşin (xidmətin) məzmunu	Ölçü vahidi	İş günü hesabı ilə vaxt norması	1 iş günündə istehsal norması
1	2	3	4	5	6
1.1	**Sənədlərin mövcudluğuna və fiziki vəziyyətinə nəzarət. Zədələnmiş daşıyıcı və mətnlərə malik sənədlərin aşkar edilməsi. Sənədlərin xüsusi işlənməsi**				
1.1.1	Sənədlərin mövcudluğunu və vəziyyətini yoxlamazdan əvvəl uçot sənədlərinin yoxlanılması	Yoxlanılan fond və sənədlər üçün uçot sənədlərinin tamlığının müəyyən edilməsi, onların müqayisə olunan göstəricilərinin tutuşdurulması, siyahı (uçot və təsvir kitabı) üzrə saxlama vahidlərinin nömrələnmə qaydasının dəqiqləşdirilməsi, onların yekun qeydlərinin düzgün tərtib edilməsinin yoxlanılması	Siyahının təsviretmə bəndi		1000
1.1.2	Sənədlərin mövcudluğunun və vəziyyətinin yoxlanılması:				
1.1.2.1	sovet dövrünə qədərki				
1.1.2.1.1	19-20 əsrin əvvələrinə aid sənədlərin	İşlərin mövcudluğunun və fiziki vəziyyətinin yoxlanılması, siyahının təsviretmə bəndlərində verilən məlumatların işin üz cildindəki məlumatlarla tutuşdurulması, işlərin rəflərdən götürülməsi və yenidən rəflərə qoyulması, işlərin vizual nəzərdən keçirilməsi, işlərin faktiki mövcudluğunun siyahılarda olan yekun qeydlərlə tutuşdurulması, işlərin mövcudluğu və vəziyyəti vərəqinin doldurulması	Saxlama vahidi		130
1.1.2.2	sovet və postsovet dövrlərinin sənədlərinin	Həmin iş	Saxlama vahidi		300
1.1.2.3	kitab şəklində bağlanmamış işlərin (ipli işlər)	Həmin iş	Vərəq		2500
1.1.2.4	elmi-texniki sənədlərin	Həmin iş	Karta		80
1.1.2.5	fotosənədlərin	Həmin iş	Fotosənəd		80
1.1.2.6	şəxsi mənşəli sənədlərin	Həmin iş	Saxlama vahidi		60
1.1.2.7	vərəq-vərəq baxılmaqla xüsusi dəyərə malik işlərin	Həmin iş, vərəq-vərəq baxılmaqla	Saxlama vahidi Vərəq		10 1500
1.1.2.8	çap nəşrlərinin	Həmin iş, vərəq-vərəq baxılmadan	Nüsxə		130

1	2	3	4	5	6
1.1.2.9	mühafizəxanalardakı kataloq və kartotekaların kartoçkalarının	Kartoçka indekslərinin kataloq və kartotekaların rubrika və altrubrikalarına uyğunluğunun yoxlanılması, mövcudluğun yoxlanılması vərəqinin doldurulması	Kartoçka		1100
1.1.2.10	siyahıların	Mühafizəxanalarda siyahıların mövcudluğunun yoxlanılması, fond və siyahının nömrələri göstərilməklə kartoçkanın tərtib edilməsi, siyahıların reyestri üzrə nömrənin qeydə alınması, reyestrdəki məlumatların kartoteka ilə uyğunluğunun yoxlanılması, siyahının nüsxələrinin mövcudluğu barədə reyestrdə qeydin aparılması	Siyahı		190
1.1.2.11	sığorta fondu və istifadə fondunun mikrofilmlərinin (mikrofişlərinin)	Mikrofilmlərin (mikrofiş komplektlərinin) daxil olmasının uçotu kitabının və istifadə fondu kartotekasının düzgün aparılmasının yoxlanılması, siyahının byukslardakı (mikrofişlərin olduğu konvertlər) soraq məlumatları ilə tutuşdurulması, mikrofilmlərin rakordlarında və byukslarda olan soraq məlumatlarının uyğunluğunun yoxlanılması, mikrofilmlərin (mikrofişlərin) mövcudluğunun yoxlanması vərəqinin tərtib edilməsi, zədələnmiş mikrofilmlərə (mikrofişlərə) kartoçkaların tərtib edilməsi	Mikrofilm rulonu, byuks, mikrofiş komplekti		230
1.1.2.12	Sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanması nəticələrinin rəsmiləşdirilməsi	Sənədlərin mövcudluğu və vəziyyətini yoxlama aktının müəyyən edilmiş formada doldurulması, yoxlamanın başa çatmasına dair siyahıda qeydin aparılması	350 saxlama vahidi üçün akt	1	
1.1.2.13	Sığorta fondu və istifadə fondunun mövcudluğunun yoxlanması nəticələrinin rəsmiləşdirilməsi	Mikrofilmlərin mövcudluğunu yoxlama aktının müəyyən edilmiş formada doldurulması	350 rulon üçün akt	1	
1.1.2.14	Az istifadə olunan fondlarda mövcudluğu yoxlanılmış qutu və bağlamalara ştamp vurulması	Kağız vərəqində (kağız lentində) ştamp vurulma tarixinin, icraçının imzasının qoyulması, kağızın (kağız lentinin) qutu və ya bağlamaya yapışdırılması	Qutu Bağlama		120 80
1.1.3	Zədələnmiş daşıyıcıya və mətnə malik sənədlərin aşkar edilməsi				
1.1.3.1	Sənədlərin aşkar edilməsi	İşlərin vərəqbəvərəq nəzərdən keçirilməsi, daşıyıcı və mətndə olan zədələrin (defektlərin) aşkar edilməsi Həmin iş, zədələnmənin hərf-rəqəm indeksasiyası ilə	Saxlama vahidi Saxlama vahidi		30 10
1.1.3.2	Zədələnmiş daşıyıcıya və mətnə malik sənədlərin uçot kartoçkalarının tərtib edilməsi	Zədələnmiş daşıyıcıya malik kartoçkanın müəyyən edilmiş formada doldurulması, kartoçkanın sənədlərin fiziki vəziyyətinin uçotu kartotekasına daxil edilməsi Həmin iş, zədələnmiş mətn ilə	Kartoçka Kartoçka		40 40

1	2	3	4	5	6
1.1.4	Nadir və xüsusi qiymətli sənədlərlə işlər				
1.1.4.1	Nadir və xüsusi qiymətli sənədlərin aşkar edilməsi				
1.1.4.1.1					
1.1.4.1.2	idarəçilik sənədlərinin olduğu işlər üzrə:				
1.1.4.1.2.1	sovet dövrünə qədərki	İşlərə vərəq-vərəq baxılması, xüsusi qiymətli sənədlərin aşkar edilməsi	Saxlama vahidi		15
1.1.4.1.2.2	sovet və postsovet dövrlərinin	Həmin iş	Saxlama vahidi		30
1.1.4.1.3	şəxsi mənşəli sənədlərin siyahıları üzrə	Elmi-məlumat aparatının öyrənilməsi, xüsusi qiymətli sənədlərin olduğu ehtimal edilən fondların siyahısının tərtib olunması, siyahıların nəzərdən keçirilməsi, baxılmaq üçün işlərin aşkar edilməsi	Siyahının təsviretmə bəndi		350
1.1.4.1.4	şəxsi mənşəli sənədlərə əsasən	İşlərə vərəq-vərəq baxılması, xüsusi qiymətli sənədlərin aşkar edilməsi	Saxlama vahidi		25
1.1.4.2	Xüsusi qiymətli işlərə, sənədlərə siyahıların tərtib edilməsi	Xüsusi qiymətli işlərin və sənədlərin siyahısının müəyyən olunmuş formada tərtib edilməsi,titul vərəqinin tərtibatı	Siyahının təsviretmə bəndi		25
1.1.4.3	Xüsusi qiymətli işlərin nömrə siyahılarının tərtib edilməsi	Xüsusi qiymətli sənədlərin nömrələrinin müəyyən edilmiş formada yazılması (xüsusi qiymətli sənədlərin aşkar edilməsi barədə aktların əsasında)	Saxlama vahidinin nömrəsi		500
1.1.4.4	“XQ” nişanının qoyulması:				
1.1.4.4.1	işlərdə və qutularda	İşlərin qutudan çıxarılması, işin aktla tutuşdurulması, işin cildində və qutuda “XQ” işarəsinin qoyulması, işlərin qutuya yığılması	“XQ” nişanı		300
1.1.4.4.2	siyahılarda	Siyahının təsviretmə bəndinə nişanların qoyulması	“XQ” nişanı		400
1.1.4.5	Nadir sənədlərin uçot və təsvir vərəqlərinin tərtib edilməsi	Uçot və təsvir vərəqinin müəyyən edilmiş formada doldurulması	Saxlama vahidi		4
1.1.5	Sənədlərin (çap nəşrləri, siyahılar) bərpa, cildlənmə, mikrofilmə çəkilmə, kserokopiya üçün hazırlanması:				
1.1.5.1	işlərdə vərəqlər nömrələnmədən və həcmi yoxlanılmadan	İşlərin mövcudluğun yoxlanması vərəqələri və işlərin fiziki vəziyyətinin uçotu kartoçkaları əsasında seçilməsi, əvəzedici kartoçkaların yazılması, işlərin çıxarılması, axtarış əlamətlərinin və işlərin sərlövhələrinin siyahı ilə tutuşdurulması, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Saxlama vahidi		100

1.1.5.2	vərəqləri nömrələməklə:				
1	2	3	4	5	6
1.1.5.2.1	sövet dövrünə qədərki işlərdə	İşlərin seçilməsi, əvəzedici kartoçkaların yazılması, işlərin çıxarılması, soraq məlumatlarının və işlərin sərlövhələrinin siyahı ilə tutuşdurulması, vərəqlərin nömrələnməsi, sənədlərin rəsmiləşdirilməsindəki xüsusiyyətləri təsvir etməklə istifadə vərəqinin və təsdiqedici vərəqin tərtibi, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		1450
1.1.5.2.2	sovet və sonrakı dövrlərin işlərində	Həmin iş	Vərəq		1750
1.1.5.3	işlərdə vərəqlərin nömrələnməsini yoxlamaqla:				
1.1.5.3.1	sovet dövrünə qədərki	İşlərin seçilməsi, əvəzedici kartoçkaların yazılması, işlərin çıxarılması, soraq məlumatlarının və işlərin sərlövhələrinin siyahı ilə tutuşdurulması, işdə vərəqlərin nömrələnməsinin yoxlanılması, sənədlərin tərtib edilməsində olan xüsusiyyətləri təsvir etməklə istifadə vərəqinin və təsdiqedici vərəqin tərtib edilməsi, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		2000
1.1.5.3.2	sovet və sonrakı dövrlərin	Həmin iş	Vərəq		3500
1.1.5.4	işlərdə vərəqlərin sistemləşdirilməsi ilə	İşlərin seçilməsi, əvəzedici kartoçkaların yazılması, işlərin çıxarılması, soraq məlumatlarının və işlərin sərlövhələrinin siyahı ilə tutuşdurulması, işdə vərəqlərin nömrələnməsi, istifadə vərəqinin və təsdiqedici vərəqin tərtib edilməsi, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		700
1.1.5.5	sənədlərinin tərtibində özünəməxsus xüsusiyyətləri olan işlərin:				
1.1.5.5.1	sovet dövrünə qədərki	İşlərin seçilməsi, əvəzedici kartoçkaların yazılması, soraq məlumatlarının və işlərin sərlövhələrinin siyahı ilə tutuşdurulması, işdə vərəqlərin nömrələnməsi (nömrələnmənin yoxlanılması), sənədlərin, poçt dövriyyəsi nişanlarının tərtib edilməsində olan xüsusiyyətləri, maddi əşyaların, bədii və qrafik sənədlərin, çap nəşrlərinin, maddi və kolleksiya əhəmiyyətli sənədlərin mövcudluğunu təsvir etməklə təsdiqetmə vərəqinin tərtib edilməsi, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		1300

1.1.5.5.2	sovet və sonrakı dövrlərin	Həmin iş	Vərəq		2000
1.1.5.5.3	şəxsi mənşəli sənədlərin	Həmin iş	Vərəq		800
1	2	3	4	5	6
1.1.5.6	özülü dağılmış sənədlərin	İşlərin mövcudluğun yoxlanması vərəqələri və işlərin fiziki vəziyyətinin uçotu kartoçkaları əsasında seçilməsi, əvəzedici kartoçkaların yazılması, işlərin çıxarılması, soraq məlumatlarının və işlərin sərlövhələrinin siyahı ilə tutuşdurulması, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		1200
1.1.5.7	çətin oxunan və zəif kontrastlı mətnə malik sənədlərin	Həmin iş	Vərəq		1600
1.1.5.9	çap nəşrlərinin	Çap nəşrlərinin seçilməsi, hər nüsxəyə vərəqbəvərəq baxılması, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Saxlama vahidi Vərəq		25 2500
1.1.5.10	qəzetlərin	Qəzetlərin mövcudluğun yoxlanması vərəqələri və işlərin fiziki vəziyyətinin uçotu kartoçkaları əsasında seçilməsi, qəzetlərə vərəqbəvərəq baxılması, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		100
1.1.5.11	cildləmə üçün siyahıların	Siyahıların seçilməsi, vərəqlərin nömrələnməsinin yoxlanılması, təsdiqetmə vərəqinin tərtib edilməsi, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması, sifarişin rəsmiləşdirilməsi	Vərəq		1750
1.1.6	Sığorta və istifadə fondlarının yaradılması məqsədilə sənədlərin aşkar edilməsi və hazırlanması				
1.1.6.1	İşlərin siyahılar üzrə aşkar edilməsi:				
1.1.6.1.1	sovet dövrünə qədərki	Mikrofilmə çəkilmək üçün məqsədəuyğunluğunun müəyyən edilməsi məqsədilə siyahılar üzrə fond sənədlərinin ümumi tərkibi və məzmunu ilə tanışlıq, işlərin siyahılar üzrə aşkar edilməsi	Siyahının təsviretmə bəndi		650
1.1.6.1.2	sovet və sonrakı dövrlərin	Həmin iş	Siyahının təsviretmə bəndi		1300
1.1.6.2	İşlərə vərəq-vərəq baxılmaqla sənədlərin aşkar edilməsi	Mikrofilmə çəkilməli sənədləri işarələməklə işlərə vərəqbəvərəq baxılması	Vərəq		800
1.1.6.3	İşlərin mikrofilmə çəkilmək üçün hazırlanması:				

1.1.6.3.1	sənədlərin dublet nüsxələrini aşkar etməklə	İşlərin vizual nəzərdən keçirilməsi, vərəqlərin düzgün nömrələnməsinin yoxlanılması, orijinalın xüsusiyyətlərinin təsvir edilməsi, dublet nüsxələrin aşkar edilməsi və çıxarılması, təsdiqetmə vərəqinin tərtib edilməsi	Vərəq		1500
1	2	3	4	5	6
1.1.6.3.2	sənədlərin dublet nüsxələrini aşkar etmədən	İşlərin vizual nəzərdən keçirilməsi, vərəqlərin düzgün nömrələnməsinin yoxlanılması, orijinalın xüsusiyyətlərinin təsvir edilməsi, təsdiqetmə vərəqinin tərtib edilməsi	Vərəq		1800
1.1.6.3.3	kartoqrafik sənədlərin	Həmin iş	Vərəq		60
1.1.6.4	Siyahıların mikrofilmə çəkilmək üçün hazırlanması	Siyahıların vizual nəzərdən keçirilməsi, vərəqlərin düzgün nömrələnməsinin yoxlanılması, təsdiqetmə vərəqinin tərtib edilməsi	Vərəq		2000
1.1.6.5	Sifarişlərin mikrofilmə çəkilmək üçün rəsmiləşdirilməsi	İşlərin seçilməsi, arxiv şifrləri üzrə sistemləşdirilməsi, hazır işlərin bağlamalar şəklində yığılması, işin icrası üçün sifariş blankının 3 nüsxədə doldurulması, sifarişə arxiv rəhbərliyinin və mühasibatlığın viza qoyması, sifarişin qeydə alınması və laboratoriyaya verilməsi	Saxlama vahidi Vərəq		100 15000
1	2	3	4	5	6
1.1.6.6.1	montaj stolunda baxılmaqla	Mikrofilmə onun texniki vəziyyətini yoxlamaq məqsədilə montaj stolunda baxılması, mikrofilmin dövlət standartına (texniki xarakteristikalara) uyğun dolanması, yoxlamanın nəticələri barədə rəyin yazılması	Kadr		20000
1.1.6.6.2	montaj stolunda baxılmadan	Mikrofilmin texniki vəziyyətinin vizual nəzərdən keçirilməsi, yoxlamanın nəticələri barədə rəyin yazılması	Kadr		12500
1.1.6.7	Mikrofilmlərin (mikrofişlərin) oxunmasının yoxlanılması	Mikrofilmin texniki vəziyyətinin vizual nəzərdən keçirilməsi, yoxlamanın nəticələri barədə rəyin yazılması	Kadr		3000
1.1.6.8	İşlərin mikrofilmə çəkildikdən, bərpa və cildlənmədən sonra qəbulu:				
1.1.6.8.1	vərəqlərin nömrələnməsini seçmə üsulu ilə yoxlamaqla	İşlərin laboratoriyadan bir-bir sayılıb qəbul edilməsi, onların fiziki vəziyyətinin yoxlanılması, vərəqlərin nömrələnməsinin seçmə üsulu ilə yoxlanılması, işlərin qaytarılması barədə uçot kitabında qeydin aparılması, işlərin mühafizəxanalara qoyulması, əvəzedici kartoçkaların götürülməsi	Saxlama vahidi		75
1.1.6.8.2	işləri vərəq-vərəq nəzərdən keçirməklə	Həmin iş, vərəq-vərəq nəzərdən keçirməklə	Saxlama vahidi Vərəq		30 1500
1.1.6.9	Siyahıların mikrofilmə çəkildikdən, cildlənmədən sonra qəbulu:				
1.1.6.9.1	vərəq-vərəq baxılmadan	İşlərin laboratoriyadan bir-bir sayılıb qəbul edilməsi, onların fiziki vəziyyətinin yoxlanılması, vərəqlərin nömrələnməsinin seçmə üsulu ilə yoxlanılması, siyahıların qaytarılması barədə uçot kitabında	Siyahı		80

		qeydin aparılması, işlərin mühafizə yerlərinə qoyulması, əvəzedici kartoçkaların götürülməsi			
1.1.6.9.2	vərəq-vərəq baxılmaqla	Həmin iş, vərəq-vərəq baxılmaqla	Siyahı Vərəq		30 1500
1	2	3	4	5	6
1.1.6.10	İşlərin mikrofilmə çəkilməsi barədə siyahılarda nişan qoyulması	Siyahıda "SF" nişanının qoyulması, təsdiqetmə vərəqində mikrofilmə çəkilmiş sənədlərin miqdarı barədə qeydin aparılması	Siyahının təsviretmə bəndi		400
1.1.6.11	Mikrofilmlərin və mikrofiş komplektlərinin xüsusi mühafizəyə göndərilmək üçün hazırlanması	Mikrofilmlərin (mikrofiş komplektlərinin) iş yerinə gətirilməsi, sığorta fondu siyahısının byukslardakı və mikrofişlərin olduğu konvertlərdəki soraq məlumatları ilə tutuşdurulması, soraq məlumatlarının plyonka rakordlarında və byukslarda bir-birinə uyğunluğunun yoxlanılması, sığorta surətlərinin yığılıb bağlanması, sığorta surətlərinin təhvil-təslim aktının və nəqliyyat tarası üçün qoşma sənədin rəsmiləşdirilməsi	Kadr		20000
1.1.7	Mühafizəxanadan işlərin (siyahıla-rın, çap nəşrlərinin) təhvil verilməsi (və ya qəbulu)				
1.1.7.1	Təhvil verilmə (və ya qəbul):				
1.1.7.1.1	işlərin	Təhvil zamanı: sifarişlə (tələblə) tanışlıq, sifarişin qeydə alınması, topoqrafik göstəriciyə əsasən işlərin mühafizə yerlərinin dəqiqləşdirilməsi, işlərin çıxarılması, onların fiziki vəziyyətinin yoxlanılması, əvəzedici kartoçkaların doldurulması, işin cildində və sifarişdə şifrin və sərlövhənin uyğunluğunun yoxlanılması, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması. Qəbul zamanı: verilmiş işlərin qəbulunun qeydiyyatı, işlərin fondlar üzrə ayrılması, istifadə vərəqələrinin düzgün doldurulmasının yoxlanılması, işlərin fiziki vəziyyətinin yoxlanılması, işlərin mühafizəxanaya qaytarılması barədə müvafiq kitabda qeydin aparılması, işlərin mühafizə yerlərinə yerləşdirilməsi, əvəzedici kartoçkaların götürülməsi	Saxlama vahidi Saxlama vahidi		100 100
1.1.7.1.2	qeyri-standart formatlı sənədlərin	Həmin iş	Saxlama vahidi		65
1.1.7.1.3	kartoqrafik sənədlərin	Həmin iş	Karta		80

1.1.7.1.4	fotosənədlərin	Həmin iş	Fotosənəd		65
1.1.7.1.5	işlərin,vərəqbəvərəq yoxlanılmaqla	Həmin iş, işləri vərəqbəvərəq yoxlamaqla və təsdiqetmə vərəqində yoxlanma barədə nişan qoymaqla	Saxlama vahidi		20
1	2	3	4	5	6
1.1.7.1.6	siyahıların	Təhvil zamanı: sifarişlə (tələblə) tanışlıq, sifarişin qeydə alınması, siyahıların çıxarılması, onların fiziki vəziyyətinin yoxlanılması, əvəzedici kartoçkaların doldurulması, siyahının cildində və sifarişdə şifrin və fondun adının uyğunluğunun yoxlanılması, sənədlərin mühafizəxanadan verilməsi kitabında qeydin aparılması. Qəbul zamanı: verilmiş siyahıların qəbulu barədə qeyd, onların fiziki vəziyyətinin yoxlanılması, istifadə vərəqinin düzgün doldurulmasının yoxlanılması, siyahıların mühafizəxanalara yerləşdirilməsi, əvəzedici kartoçkaların götürülməsi	Saxlama vahidi Saxlama vahidi		170 170
1.1.7.1.7	mikrofilmlərin, mikrofiş komplektlərinin	Təhvil zamanı: sifarişlə (tələblə) tanışlıq, sifarişin qeydə alınması, mikrofilmlərin, mikrofişlərin çıxarılması, onların fiziki vəziyyətinin yoxlanılması, əvəzedici kartoçkaların doldurulması və yerləşdirilməsi, mühafizəxanadan istifadə fondunun surətlərinin verilməsinin qeydiyyatı kitabında qeydin aparılması, mikrofilmlərin, mikrofişlərin verilməsi. Qəbul zamanı: verilmiş mikrofilmlərin, mikrofişlərin qəbulu barədə qeyd, onların fiziki vəziyyətinin və byuksdakı (mikrofişlərin olduğu konvertdə) şifrlərin uyğunluğunun yoxlanılması, komplektdə mikrofişlərin sayının və yerləşmə qaydasının yoxlanılması, mikrofilmlərin, mikrofişlərin mühafizəxanalarda yerləşdirilməsi, əvəzedici kartoçkaların götürülməsi	Saxlama vahidi, byuks, mikrofiş komplekti Saxlama vahidi, byuks, mikrofiş komplekti		150 150
1.1.7.1.8	kataloqların kartoçkalarının, kartotekaların (mühafizəxanadan)	Təhvil zamanı: sifarişlə tanışlıq, kartoçkaların, kartotekaların seçilməsi, əvəzedici kartoçkaların doldurulması, uçot kitabında qeydə alınması. Qəbul zamanı: qəbulun qeydə alınması, kartoçkaların komplektinin yoxlanılması, onların mühafizə yerlərinə yerləşdirilməsi, əvəzedici kartoçkaların götürülməsi	Kartoçka Kartoçka		3700 3700
1.1.7.1.9	çap nəşrlərinin	Təhvil zamanı: sifarişlə (tələblə) tanışlıq, nəşrlərin sifarişə uyğun olaraq seçilməsi, sifarişin qeydə alınması, onların fiziki vəziyyətinin yoxlanılması,	Saxlama vahidi		100

1	2	əvəzedici kartoçkaların doldurulması, nəşrin cildində və sifarişdə şifrin və adın uyğun olmasının yoxlanılması, çap nəşrlərinin mühafizəxanadan verilməsinin qeydiyyat kitabında qeydin aparılması. 3	4	5	6
		Qəbul zamanı: verilmiş nəşrlərin qəbulunun qeydiyyatı, onların fiziki vəziyyətinin yoxlanılması, istifadə vərəqinin doldurulmasının yoxlanılması, nəşrlərin vərəq-vərəq yoxlanılması, qeydiyyat kitabında çap nəşrlərinin qaytarılması barədə qeydin aparılması	Saxlama vahidi		100
1.1.7.2	Aktların rəsmiləşdirilməsi ilə sənədlərin müvəqqəti istifadəyə verilməsi (və ya qəbulu)				
1.1.7.2.1	sovet dövrünə qədərki	Təhvil zamanı: sifarişin qeydə alınması, işlərin çıxarılması, işlərin fiziki vəziyyətinin və onların vərəq hesabilə həcminin yoxlanılması, müəyyən edilmiş forma üzrə verilmə aktının rəsmiləşdirilməsi, sənədlərin müvəqqəti istifadəyə verilməsi kitabında qeydin aparılması. Qəbul zamanı: sənədlərin qəbulunun müəyyən edilmiş formada rəsmiləşdirilməsi, kitabda sənədlərin qaytarıldığı barədə qeydin aparılması, vərəqlərin nömrələnməsinin yoxlanılması, işlərin mühafizəxanalara yerləşdirilməsi	Saxlama vahidi Akt (1 təşkilat) Saxlama vahidi Akt (1 təşkilat)		10 1 10 1
1.1.7.2.2	sovet və sonrakı dövrlərin	Həmin iş	Saxlama vahidi Akt (1 təşkilat)		40 1
1.1.7.3	Sənədlərdən istifadə vərəqələrinin doldurulması və yapışdırılması	sənədlərdən istifadə vərəqələrinin müəyyən edilmiş formada doldurulması, vərəqələrin işlərə yapışdırılması	İstifadə vərəqəsi		130
1.1.7.4	Sənədlərin sığorta olunması	Sənədlərin dəyər kateqoriyasının və sahələr üzrə metodiki işləmələrə uyğun olaraq sığorta dəyəri həcminin müəyyən edilməsi, sığorta dəyəri aktının müəyyən edilmiş formada rəsmiləşdirilməsi	Akt (1 sənəd üçün)	0,5 (4 saat)	
1.1.8	Sənədlərin məqsədəuyğun şəkildə yerləşdirilməsi və onların fiziki vəziyyətinin yaxşılaşdırılması üzrə işlər				
1.1.8.1	Mühafizəxanalara yerləşdirilməsi:				

1.1.8.1.1	işlərin	Mühafizənin məqsədəuyğun təşkili, işlərin mühafizəsinin, təhlükəsizlik texnikasının və işçilərin əməyinin mühafizəsinin yaxşılaşdırılması məqsədilə işlərin mühafizəxanaya yerləşdirilməsi, işlərin olduğu yer barədə topoqrafik göstəricidə nişanın qoyulması	Saxlama vahidi		900
1	2	3	4	5	6
1.1.8.1.2	qutuların, bağlamaların	Həmin iş	Qutu, bağlama		90
1.1.8.1.3	mikrofilmlərin, mikrofişlərin	Həmin iş	Byuks, mikrofiş komplekti		300
1.1.8.1.4	siyahıların	Fondların və siyahıların nömrələrinin ardıcıllığı ilə siyahıların mühafizəxanalara yerləşdirilməsi	Siyahı		600
1.1.8.1.5	çap nəşrlərinin, qəzet tikililərinin	Mühafizəxanada məqsədəuyğun şəkildə yığılması üçün çap nəşrlərinin, qəzet tikililərinin yerləşdirilməsi	Saxlama vahidi, qəzet tikilisi		150
1.1.8.2	İşlərin, mikrofilmlərin, mikrofişlə-rin, çap nəşrlərinin istifadədən sonra mühafizəxanalarda düzgün yerləşdi-rilməsinin yoxlanılması	İşlərin, mikrofilmlərin, mikrofişlərin, nəşrlərin mühafizəxanadan verilməsi kitabındakı yazıların onların mühafizəxanalarda faktiki mövcudluğu ilə tutuşdurulması, yerlərinin göstəricilərə əsasən dəqiqləşdirilməsi, sənədlərin, mikrofilmlərin, mikrofişlərin, nəşrlərin düzgün yerləşdirilməsinin yoxlanılması, yoxlama vərəqinin rəsmiləşdirilməsi	Saxlama vahidi, byuks, mikrofiş komplekti		200
1.1.8.3	İşlərin bir mühafizəxanadan digərinə köçürülməsi	İşlərin bir mühafizəxanadan digərinə köçürülməsi, qəbul-təhvil aktının rəsmiləşdirilməsi, topoqrafik göstəricilərə dəyişikliklərin edilməsi	Saxlama vahidi		220
1.1.8.4	İşlərin mühafizəxanaya daimi saxlanmaq üçün qəbul-təhvili	İşlərin bir-bir sayılıb qəbul edilməsi, işin cilddəki təsvirinin siyahı ilə müqayisəsi, uçot sənədlərinin yoxlanması, qəbulun müəyyən edilmiş formada rəsmiləşdirilməsi	Saxlama vahidi		270
1.1.8.5	Kartoçkaların hər fond və qəfəsə üzrə topoqrafik göstəricilər üçün tərtib edilməsi və sistemləşdirilməsi				
1.1.8.5.1	kartoçkaların hər fond və qəfəsə üzrə topoqrafik göstərici üçün tərtib edilməsi	Müəyyən edilmiş formada hər fond və hər qəfəsə üçün kartoçkanın yazılması	Kartoçka		60
1.1.8.5.2	kartoçkaların göstəricilər üçün sistemləşdirilməsi	Kartoçkaların bir otaq daxilində fondların nömrələrinin sırası və ya qəfəsələrin nömrələrinin sırası üzrə qruplaşdırılması	Kartoçka		500
1.1.8.6	Sənədlərin mühafizəsinin temperatur-rütubət rejiminə nəzarət	Temperaturun, otaq və çöl havasının nisbi rütubətliliyinin ölçülməsi, nəzarət-ölçü cihazlarının göstəricilərinin xüsusi	Müşahidə	20 dəqiqə (0,04 iş	

		qeydiyyat jurnallarında təsbit edilməsi, kondisionerlər, ventilyatorlar, otağın havasının dəyişdirilməsi, havanın nəmləndirilməsi yolu ilə temperatur-rütubət rejiminin tənzimlənməsi		günü)	
1	2	3	4	5	6
1.1.8.7	Tozdan təmizləmə:				
1.1.8.7.1	qəfəsələrin				
1.1.8.7.1.1	tozsoranla	Qutuların, bağlamaların qəfəsədən götürülməsi, qəfəsənin səthindən tozun təmizlənməsi	Poqon metr		200
1.1.8.7.1.2	nəm parça ilə	Həmin iş, nəm parça ilə	Poqon metr		100
1.1.8.7.2	sənədlər çıxarılmadan qutuların, bağlamaların	Qutuların, bağlamaların qəfəsələrdən götürülməsi, tozun nəm parça ilə təmizlənməsi	Qutu, bağlama		130
1.1.8.7.3	sənədlər çıxarılmaqla qutuların, bağlamaların	Qutuların, bağlamaların qəfəsədən götürülməsi, qutunun, bağlamanın səthindən tozun təmizlənməsi, işlərin qutudan və ya bağlamadan çıxarılması, işin səthinin silinib təmizlənməsi, işlərin qutulara yığılması və ya bağlama şəklində bağlanması, onların qəfəsələrdə yerləşdirilməsi	Qutu, bağlama		20
1.1.8.7.4	işlərin	İşin səthinin yumşaq parça ilə silinib təmizlənməsi	Saxlama vahidi		450
1.1.8.7.5	siyahıların	Həmin iş, siyahının	Saxlama vahidi		500
1.1.8.7.6	çap nəşrlərinin	Həmin iş, çap nəşrinin	Saxlama vahidi		500
1.1.8.8	Laboratoriyada saxlama vahidlərinin və sənədlərin fiziki vəziyyətinin yaxşılaşdırılması üzrə görülməli işlər:				
1.1.8.8.1	sənədlərin dezinfeksiyası	İşlərin qutudan çıxarılması, qutunun silinib təmizlənməsi, xüsusi vasitələrdən istifadə etməklə işlərin parça ilə nəm təmizlənməsi, işlərin qutuya yığılması	Vərəq Saxlama vahidi		1200 15
1.1.8.8.2	vərəqlərin bərpası	Ayrı-ayrı fraqmentlərdən vərəqin montajı, vərəqin lazımi formata qədər artırılması,vərəqin qurudulması, ütülənməsi və preslənməsi	Vərəq		50
1.1.8.8.3	kötüklərin artırılması və möhkəmləndirilməsi	Əzilmiş və qopmuş künclərin kəsilməsi, özülün kiçik yarıqlarına bərkidilməsi, vərəqin qurudulması, ütülənməsi və preslənməsi, vərəqin kənarlarının kəsilməsi, hər vərəqin kənarlarının, yaxud vərəqin bütövlükdə bərpa kağızı ilə möhkəmləndirilməsi	Vərəq		150
1.1.8.8.4	sənədlərin cildlənməsi	Bərpadan sonra vərəqin kənarlarının kəsilməsi, sənədlərin dəzgahın içinə sistemli yığılması, dreldən istifadə edib tikmə, saxlama	Saxlama vahidi		10

		vahidinin ölçüsünə uyğun kartonun və kalenkorun (forzats) kəsilməsi			
1.1.8.9	Karton qutulara yığılma:				
1	2	3	4	5	6
1.1.8.9.1	işlərin	İşlərin nömrə ardıcıllığı ilə qutuya yerləşdirilməsi, qutuda arxiv şifrinin qoyulması, qutuların qəfəsəyə yerləşdirilməsi	Saxlama vahidi		450
1.1.8.9.2	kartoqrafik sənədlərin	Kartoqrafik sənədlərin iriformatlı qovluqlara yerləşdirilməsi, qovluqda arxiv şifrinin qoyulması	Qovluq		20
1.1.8.9.3	mikrofilmlərin, mikrofiş komplektlərinin	Mikrofilmlərin olduğu byuksların mikroteka xanalarına, mikrofiş komplektlərinin konvertlərə (qutulara), mikrofilmə çəkilmiş işlərin nömrə adrıcıllığı ilə yığılması	Byuks, mikrofiş		900
1.1.8.10	İşlərin yenidən karton qutulara yığılması	İşlərin köhnə qutudan çıxarılması, işlərin nömrə ardıcıllığı ilə yeni qutuya yerləşdirilməsi, qutuda arxiv şifrinin qoyulması, qutunun qəfəsədə yerləşdirilməsi İşlər bağlamalarda olduqda: bağlamaların açılması, işlərin qutuya nömrə ardıcıllığı ilə yerləşdirilməsi,qutuda arxiv şifrinin qoyulması, qutunun qəfəsədə yerləşdirilməsi	Saxlama vahidi Saxlama vahidi		500 300
1.1.8.11	İş bağlamalarının formalaşması:				
1.1.8.11.1	mühafizə edilməli	İşlərin nömrə ardıcıllığı ilə qruplaşdırılması, yarlıqda fondun, siyahının nömrəsinin, bağlamadakı işlərin nömrələrinin yazılması, yarlığın ipə bərkidilməsi, işlərin bağlanması	Bağlama		55
1.1.8.11.2	mühafizə edilməli olmayan	İşlərin bağlamalarda qruplaşdırılması, işlərin bağlanması	Bağlama		75
1.1.8.12	Yarlıqların tərtibatı				
1.1.8.12.1	yarlıqların yazılması	Yarlıqda fondun və siyahının nömrəsinin, işin ilk və son nömrəsinin, olmayan işlərin və qutunun nömrələrinin yazılması	Yarlıq		100
1.1.8.12.2	yarlıqların yapışdırılması	Yarlığa yapışqan sürtülməsi və qutunun, qovluğun, byuksun üzərinə yapışdırılması	Yarlıq		160
1.1.8.13	Qeyri-standart formatlı sənədlərin mühafizəsi üçün konvertlərin hazırlanması	Konvertlərin sənədlərin fərdi ölçülərinə əsasən ölçülüb kəsilməsi, konvertlərin yapışdırılması	Konvert		30
1.1.9	İşlərin texniki tərtibatı				
1.1.9.1	İşlərin, qəzetlərin tikilməsi				
1.1.9.1.1	idarəçilik sənədlərinin:				
1.1.9.1.1.1	100 vərəq həcmindək	Vərəqlərin qalın cildə yığılması, onların dörd yerdən tikilməsi,	Saxlama vahidi		50

		iplərin düyünlə bərkidilməsi			
1.1.9.1.1.2	100-dən 150 vərəq həcmindək	Həmin iş	Saxlama vahidi		25
1.1.9.1.1.3	qeyri-standart formatlı işlərin	Həmin iş	Saxlama vahidi		20
1	2	3	4	5	6
1.1.9.1.2	sənədlərin eyni vaxtda bərpası və bərpa elementləri ilə	Sənədin bərpa və təmir elementləri ilə, kötüyü artırılmaqla tikilməsi	Saxlama vahidi		10
1.1.9.1.3	qəzetlərin tikilməsi[1]	Qəzet vərəqlərinin iriformatlı cildə yığılması, onların beş yerdən tikilməsi	Qəzet tikilisi		4
1.1.9.2	İşlərdə vərəqlərin nömrələnməsi [2]				
1.1.9.2.1	sovet dövrünə qədərki	İşdə vərəqlərin nömrələnməsi	Vərəq		2000
1.1.9.2.2	sovet və sonrakı dövrlərin	Həmin iş	Vərəq		2500
1.1.9.2.3	şəxsi mənşəli sənədlərin	Həmin iş	Vərəq		1700
1.1.9.3	Təsdiqetmə vərəqlərinin tərtibatı	Təsdiqetmə vərəqinin müəyyən edilmiş formada doldurulması, vərəqin işə yapışdırılması	Vərəq		120
1.1.9.4	İşlərdə vərəqlərin nömrələnməsinin yoxlanılması:				
1.1.9.4.1	sovet dövrünə qədərki	Vərəqlərin nömrələnməsinin vərəqbəvərəq yoxlanılması, işdə çatışmayan vərəqlərin yaxud nömrələmədə səhvlərin aşkar edilməsi, buraxılmış səhvlər barədə təsdiqetmə vərəqində qeydin aparılması	Vərəq		3000
1.1.9.4.2	sovet və sonrakı dövrlərin	Həmin iş	Vərəq		4000
1.1.9.4.3	şəxsi mənşəli	Həmin iş	Vərəq		3000
1.1.9.5	Vərəqlərin nömrələnməsi yoxlandıqdan sonra təsdiqetmə vərəqinin yazılması	İşdə vərəqlərin nömrələnməsi yoxlandıqdan sonra təsdiqetmə vərəqinin yazılması, icraçının vəzifəsinin, imzasının və tarixin qoyulması	Möhür		400
1.1.9.6	İşlərin və siyahıların üzlüklərinin tərtibatı				
1.1.9.6.1	tipoqrafiya üzlükləri	Üzlükdə (titul vərəqində) fondun adının (fondtəşkiledənin), struktur hissənin, işin sənədinin sərlövhəsinin adının, sənədlərin ilk və son tarixlərinin, siyahıya uyğun olaraq işdə olan vərəqlərin sayının yazılması	Üzlük		60
1.1.9.6.2	trafaretsiz üzlüklər	Həmin iş, üzlüyün üzərinə cızıq (nişan) qoymaqla	Üzlük		35
1.1.9.6.3	iriformatlı üzlüklər	Həmin iş	Üzlük		20

[1] Bir tikiliyə formatından və nəşr həcmindən asılı olaraq yarımillik və ya rüb ərzindəki qəzetlərin nömrələri daxildir.

[2] Ehtiyatlı davranma tələb edən köhnəlmiş və çətin oxunan vərəqlər nömrələnərkən, norma 20-30%-dək azaldıla bilər.

1.1.9.6.4	arxiv şifri qoyulmaqla	Həmin iş, üzlükdə möhürün vurulması, şifrin yazılması ilə	Saxlama vahidi		45
1.1.9.6.5	siyahıların üzlüklərinin	Üzlüyün siyahının titul vərəqinə uyğun tərtibatı	Üzlük		65
1.1.9.7	Arxiv şifrlərinin qoyulması				
1	2	3	4	5	6
1.1.9.7.1	kartoçkalarda	Arxiv şifrlərinin sistemləşdirilmiş kartoçkalarda yazılması	Kartoçka		380
1.1.9.7.2	işlərin üzlüklərində	İşlərin sərlövhələrinin siyahı (kartoçka) ilə tutuşdurulması, üzlükdə möhürün vurulması və şifrin yazılması	Saxlama vahidi		280
1.1.9.7.3	mikrofilmlərdə	Byuksun qapağında arxiv şifrinin yazılması, şifrin plyonka kəsiyinə vurulması	Byuks		100
1.1.9.7.4	fotolarda	Pozitivin arxa üzündə arxiv şifrinin qoyulması	Fotosənəd		250
1.1.9.7.5	kartoqrafik sənədlərdə	Sənədin sərlövhəsinin siyahı ilə tutuşdurulması, üzlükdə möhürün vurulması, arxiv şifrinin, vərəqlərin nömrələrinin yazılması	Vərəq		180
1.1.9.8	Məxfiliyin açılması barədə möhürlərin və qeydlərin qoyulması:				
1.1.9.8.1	işlərə (vərəqlərə)	İşin cildində və işdə olan vərəqlərdə “Məxfiliyi açılmışdır” möhürünün və qeydinin qoyulması	Saxlama vahidi Vərəq		50 500
1.1.9.8.2	siyahıda	Siyahının təsviretmə bəndlərinə və cildində “Məxfiliyi açılmışdır” möhürünün və qeydinin qoyulması	Siyahının təsviretmə bəndi		350
1.1.9.8.3	Sığorta fondu və istifadə fondunun mikrofilmlərinə	İstifadə vərəqinə akt əsasında “Məxfiliyi açılmışdır” möhürünün və qeydinin qoyulması	Rolik		40

2. MAF sənədlərinin uçotu

İndeks	İşin (xidmətin) adı	İşin (xidmətin) məzmunu	Ölçü vahidi	İş günü hesabı ilə vaxt norması	1 iş günündə istehsal norması
1	2	3	4	5	6
2.1	**Arxiv sənədlərinin uçotunun təşkili**				
2.1.1	Sənədlərin daxilolmalarının uçot kitabının aparılması	Sənədlərin daxilolmalarının uçotu kitabının müəyyən edilmiş formada doldurulması	Daxilolma		35
2.1.2	Fondların siyahısının aparılması	Fondların siyahısının müəyyən edilmiş formada doldurulması	Yazı		70
2.1.3	Fond vərəqlərinin tərtib edilməsi	Fond vərəqinə məlumatların müəyyən edilmiş formada daxil edilməsi	Fond vərəqi		6
2.1.4	Fond kartoçkalarının tərtib edilməsi	Fond kartoçkasının fond vərəqi əsasında müəyyən edilmiş formada doldurulması	Kartoçka		20
2.1.5	Fond işlərinin formalaşdırılması və aparılması				
2.1.5.1	fond işlərinin formalaşdırılması	Fond işinə fondtəşkiledənin və fondun tarixinə dair sənədlərin, uçot sənədlərinin daxil edilməsi, onların tarixlər üzrə sistemləşdirilməsi,vərəqlərin nömrələnməsi, fond işinə daxil edilən sənədlər üçün daxili siyahının tərtib edilməsi, təsdiqetmə vərəqinin tərtib edilməsi, sənədlərin tikilməsi	Fond işi		12
2.1.5.2	fond işlərinin aparılması	Fond işinə daxil olan sənədlər kompleksinə zəruri dəyişikliklərin edilməsi	Fond işi		24
